# Vətənə, yurda sevgi

## Bu, Yusuf Özcan yaradıcılığının ana qayəsidir



**Şair Ənvər Əhməd yazır ki, şairlərin böyüyü, kiçiyi olmur. Sadəcə olaraq, biri nəğməsini pəsdən, biri isə zildən oxuyur. Amma necə oxumaqdan çox şey asılıdır... Şeirin, sənətin mayası səmimiyyətdən yoğrulmalıdır. Və sənətkar ürəyində yaşatdıqları "duyğu balalarını" elə təqdim etməlidir ki, bu hisslər başqa qəlblərdə də əks - səda versin...**

O, bu deyilənləri çox məharətlə çatdırırdı dinləyicisinə. Ürəkdən gələn bir yanğıyla "harda bir türk varsa, mən onun köləsiyim" misralarıyla sanki ovsunlamışdı Türk Ocaqları Antalya şöbəsində təşkil olunmuş "Əhməd Cavad 130" tədbirinə toplaşanları.

**Yunus Emre, Mevlana, Hacı Bektaş Veliyim**
**Uluğ bey, İbn - i Sina, Yasevinin diliyim.**
**Hazarı kucaklayan Şehriyar, ın iliyim**
**Gurbetteki vatanın candakı sılasıyım**
**Nerde bir türk yaşarsa, ben onun kölesiyim...**

**.... Ankaradan Baküye selam veren elim ben,**
**Turfanda da açılan yediveren gülüm ben,**
**Bir kibleye yönelen, bir konuşan dilim ben**
**Camilerde ezanım, hürriyet salasıyım**
**Nerde bir türk yaşarsa, ben onun kölesiyim...**

O, Yusuf Özcandı. Bütün türk dünyasının birliyinə, həmrəyliyinə yaradıcı qəlbi ilə inanan, onun təşkilatlanması istiqamətində görülən işləri təqdir edən Yusuf Özcan.

**Haşiyə:** Yusuf Özcan 1 mart 1956-cı ildə Çoprașıkda anadan olub. Bu kənd əvvəlcə Yozqat vilayətinə, sonra Avanosla, daha sonra isə bəzi siyasi səbəblərdən Kırşehir/Çiçekdağına birləşib. Ailəsi Yozgat/Şefaatlı rayonuna köçdükdən sonra dörd yaşından Şefaatlıda yaşamağa başlayıb. Uşaqlığı və gəncliyi bu rayonda keçib. Sefaatlı rayonunda ibtidai və orta məktəbdə oxuyub. Orta məktəbi bitirdikdən sonra Perşembe Müəllimlər Məktəbini qazanıb, oradan Tokat Müəllimlər Məktəbinə keçib, məzun olub, sonra Anadolu Universitetini bitirib.

1976-cı ildən Milli Təhsil Nazirliyinə tabe olan bölmələrdə müəllim və idarəçi vəzifələrində çalışıb. Yozqat Mərkəz və rayonlarında müəllim/idarəçi işləyərkən Yozqat mətbuatında, televiziya və radio verilişlərində iştirak edib. 2002-ci ildə Yozqat Qazi Mustafa Kamal İbtidai məktəbindən təqaüdə çıxıb. Antalyada yaşayır və dövri mətbuatda çıxışlar edir, televiziya-radio proqramları hazırlayır.

Onun şeirləri "Gözyaşı", "Çağrı", "Kırağı", "Sürmeli", "Kürsü", "İstanbul", "Türkmən", "Mersin Maki", "Manisa Sevgi Yolu" kimi bir çox jurnallarda, Yeni Ufuk, İleri, Sıla, Ekspres, Antalya qezeti, Yozgat Haber, Kümbetova nəşrlərində, Azərbaycanın və Qazaxıstanın müxtəlif qezetlərində dərc olunub.

Yusuf Özcanın müxtəlif mövzularda qısa hekayələri və topluları da var. Şeirlərinə musiqilər bəstələnib və bu bəstələr TRT arxivində qorunmaqdadır. Haqqında yazılmış "Xalq şairi Yusuf Özcan" adlı araşdırma kitabı gələcək nəsillər üçün qiymətli mənbədir.

Onun çoxsaylı kitabları: "Kervan Yürüten" (1993, şeirlər), "Deli Düşlerim Dolunay" (1997, şeirler), "Seçilmiş əsərləri" (1999), "Aşkın Ötesinde" (2009 şeirlər), "Sabahı Bekle" (2015, şeirlər), "Çopraşık Türkmen ağıtları" ( 2020), "Kördüğüm / Destanlar" (2020 şeirlər) və başqaları oxucular tərəfindən maraqla qarşılanıb.

Şair Yusuf Özcanın yaradıcılığında Azərbaycan mövzusu da yer almaqdadır. Şairin Vətən müharibəsindən sonra qələmə aldığı şeirlərdə 30 il işğal altında qalan yurd yerlərimizin Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində azad olunması vəsf edilir. O, "Can Qarabağ" şeirində yazır:

**Türkün Vatanıdır türkün öz yurdu**
**Hilalin halesi can Karabağım!**
**Yiğitler mevzide namaza durdu**
**Her devrin şulesi can Karabağım!**

**Hürriyetdir Başbeyimin sızısı,**
**Kınalandı Şuşa diye kuzusu.**
**Şehitlikdi Heşimovun arzusu**
**Vatanın kölgesi can Qarabağım!**

Bu şeir Azərbaycan xalqının haqlı davasının tərənnümü, dövlətimizin və ordumuzun Vətən müharibəsinin gedişində göstərdiyi misilsiz igidliyin türk oxucularına çatdırılması və təbliği baxımından da diqqəti çəkir. Şair Şuşanın, Qarabağın işğaldan azad edilən digər yurd yerlərini, adını nəzmə çəkməklə general Polad Həşimovun şəhidliyi önündə də baş əyir, azad Qarabağı Vətəni kölgəsi kimi vəsf edir:

**İstiklal uğrunda ölenler yaşar,**
**Ağdamlı kabına sığmayıp taşar.**
**Elbette, Gubatlı düğünde coşar**
**Bakünün balası can Karabağım!**

**İki devlet bir millətin mirası,**
**Hazar ile kucaklıyor Arası.**
**Ermeniye mezar oldu burası**
**Koçaklar silası can Karabağım!**

Beləliklə, bütün şeir boyu səslənən toponimlər, ümumiyyətlə, Vətən müharibəsində qazanılan parlaq zəfərin əhəmiyyəti Yusuf Özcanın yaradıcılıq süzgəcindən keçərək bədii məzmunla daha da zənginləşib. Bu isə təbii ki, şairin bu qələbəyə təkcə Azərbaycan xalqının deyil, həm də türk xalqının qələbəsi kimi yanaşmasından irəli gəlir.

Yusuf Özcanın yaradıcılığında həm də insanoğlunun həyatı, onun dünyagörüşü qərarlaşıb. Rastlaşdığı hadisələrin şairin yaşantısında yaratdığı məzmundan doğan şeirlər onun yaradıcılığının əsas qayəsini təşkil edir. Sevgi və həyatın axarında qarşılaşdığı çətinlikləri şeirə çevirib öz oxucularının görüşünə gələn şair "Dur da bak" şeirində deyir:

**Yüreğime nakışlandı hasretin**
**Nere ipek, nere simdir dur da bak.**
**Benliğime kazınmıştır suretin**
**Her bir anın bir resimdir dur da bak.**

**Və yaxud "Ne fayda" şeirinde:**

**Gönlümün katarı çıktı rayından**
**Makas başlarında dursan ne fayda?!**
**Tuğralar düştükce can sarayından**
**Yıkılmış binamı kursan ne fayda?!**

Şair olmaq cəmiyyət adamı olmaq deməkdir. Cəmiyyətdə baş verənlərin ədəbiyyatda əksi həm də şairlərin işidir deyənlər yanılmır. Həssas şair qəlbinin ətrafda olub-bitən hadisələrə biganə qalmaması, onlardan nəticə çıxarıb öz oxucularını aydınlığa səsləməsi təbiidir.

**Ocaktan yükselen duman**
**Bacaya gitse kime ne?**
**Hamur(dan) Ağrı(lı) insan**
**Bucaya gitse kime ne?**

**İğneden geçmiyor iplik,**
**Sökükte var bir gariplik.**
**Hasta iksa da tabiplik**
**Hocaya gitse kime ne?**

Yusuf Özcanın yaradıcılığında Çopraşık türkmen ağıtları önəmli bir yerə sahibdir. Həttа şair buna ayrıca kitab da yazıb. 2020-ci ildə nəşr edilən "Çopraşık türkmen ağıtları" kitabında şair öz yurdunun gözəlliklərini, insanlarının mərdliyini, qəhrəmanlığını, adət-ənənələrini tərənnüm edir. Hələ 100 il öncə baş verənlərin yaşadılması, bölgə xalqının qəhrəmanlıqlarını nəzmə və kiçik hekayələrə çevirərək gələcək nəsillərə yadigar qoyan Yusuf Özcan həm də bu günün reallıqlarına işıq salır. Türkiyənin bitməyən probleminə çevrilən amansız terrorun qurbanları xatırlanır, onun doğma kəndinin bu yolda verdiyi qurbanların xatirəsi əziz tutulur:

**Dağda Darmuk dediler,**
**Gelin çabuk dediler.**
**Afrie neşter vurun**
**Yara kabuk dediler.**

**Özcan kurban Mehmete**
**Ün saldı memlekete.**
**Bütün dünya imrendi**
**Türkteki merhemete.**

Bu kitabı Çopraşık ensiklopediyası da adlandırmaq olar. Kəndin folklorunun diqqətlə araşdırılaraq kitaba salınmasını Yusuf Özcan maraqlı formatda tərtib edib. Baş verənlər təkcə nəzmlə deyil, həm də kiçik hekayələrin nəqli formasında da həyata keçirilib. Yazılanların hamısı yaşanan real hadisələrdən götürülüb və bütün təqdim olunanları birləşdirən əsas amil Vətənə, yurda olan sevgidir. Bu, Yusuf Özcan yaradıcılığının ana qayəsidir.

Qeyd etdik ki, Yusuf Özcan hər zaman onu düşündürən, təsirləndirən mövzulardan yazır. Onun şeirləri aşıqların sazında, sözündədir. Qələmə aldığı bütün mövzulara öz münasibəti olan Yusuf Özcan həm də dediyi sözün məsuliyyətini duyduğundandır ki, fikirləri aydın, dedikləri səmimidir.

İnsanlığa, xeyirxahlığa, milli köklərə bağlılıq, vətənpərvərlik, yurdsevərlik onun şeirlərinin mahiyyətinə hopub və böyük fəlsəfi məzmun daşıyır. Bu səbəbdəndir ki, onu Türkiyə ilə yanaşı, türk cümhuriyyətlərində də tanıyır, sevir və oxuyurlar. Əslində yaradıcı insanın ən böyük qazancı da elə budur. Arzu edirəm, bu sevgi hər zaman sizinlə olsun, Yusuf Özcan. Sevildiyini, arzulanaraq oxunduğunu biləndə yazmaq, yaratmaq da xoş olur şairlərə.

**Şəhla Tahirqızı,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**